**ANAR**
*Xalq yazıçısı,*
*Azərbaycan Yazıçılar Birliyinin sədri*

# SÖZ DƏ SİLAHDIR



Ana dilimizin qədim abidəsi möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ən gözəl cəhətlərini əks etdirir – doğma yurd sevgisini, torpağı yağılardan qorumaq əzmini, Vətən uğrunda döyüşlərdə qəhrəmanlıq, fədakarlıq, şəhidlik örnəklərini və bütün bu igidliklərin sonda sözlə, söyləmələrlə – şeirlərlə ifadə olunub əbədiləşdirilməsini.

Azərbaycan tarixi səlcuqlardan – oğuzlardan, Şah İsmayıl qızılbaşlarından Hacı Çələbi xana qədər hərbi şücaətlərlə, döyüş meydanında şanlı zəfərlərlə doludur. Güclü düşmən qarşısında əyilmədən, diz çökmədən müdafiə etdiyi şəhərin qala divarlarında şəhidlik zirvəsinə ucalan Cavad xanın fədakarlığı da tariximizin qürur verən səhifələrindəndir. Cavad xanın adı da, igidliyi də xalqın dilində dastanlaşmış, şairlər tərəfindən vəsf olunmuşdur.

Cavad xanın Gəncəsi də, İrəvan xanlığı daxil olmaqla başqa Azərbaycan xanlıqları da çar Rusiyasının işğalına məruz qalandan sonra dövlətin siyasəti müsəlman xalqlarının iradəsini, döyüş əzmini qırmaq üçün onları əsgəri xidmətdən, hərbi təlimdən uzaqlaşdırmaq idi. Orduda "soldat" olmaq qorxusu şüurlara elə yeridilmişdi ki, Mirzə Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" pyesində təsvir olunduğu kimi, kəndlilər ancaq elə "soldat" sözünü eşidəndə "bizim kənddə yerindən-dibindən uşaq olmayıb" deyə balalarını gizlədirlər. Rəsul Rzanın bu mövzuda şeiri var:

Babam saqqalı ağ,
Qaşları qalın
Qarayanız, enli alınlı bir kişiydi,
Namaz qılıb gündə beş rükət
deyərdi: Nağalayın atasına rəhmət!
Bizdən saldat aparmadı,
Gavur olsa da



Behiştlik çəkilsin adı.
Ancaq...
Ağır oturdu bizə bu "mərhəmət"
Böyük vətən davasında
daha yaxşı anladıq bunu
Nikolayın bizə olan qayğısını.
Çıxdıq amansız düşmənə qarşı
Əlimiz müasir silaha öyrənməmiş,
şüurumuz böyük davada naşı.
Yadıma bir köz kimi düşür
dərdli Krım
Yadıma düşdü,
yetmiş tikəsini bir qutuya yığdığımız
qarayanız əsgərin
anasına yazdığı məktub
onun ucu belə sınmamış
təzə karandaşı,
Yadıma düşdü
sərxoş bir kapralın
könlümə vurduğu şillə – yeldaşı!
Bəli çox yaralandıq, öldük
Gün oldu tut kimi töküldük
Xatırladım babamı,
çünki yaxşı öyrənsəydi
müasir silaha əlimiz
daha az qurban verərdik
daha artıq düşmən anası ağladardıq.
Axı çox yerdə silahla yarılacaq cəbhəni
sinəmizlə yardıq.
Döyüşə bələd düşmən
bir yaylımla sərdi yerə
Bölüyümüzün neçə səfini
Qanımızla yumalı olduq
Yazıq, sadəlövh babamın
tarixi səhvini.

Rəsul Rza bu şeiri 1941–1942-ci illərdə Krım cəbhəsində Cəfər Cəfərov, Əli Vəliyev, Abbas Zamanov, Nəsir İmanquliyev, İbrahim Novruzovla birlikdə cəbhə qəzetində müxbir kimi çalışdığı vaxt şahidi olduğu hadisələr barəsində yazıb. Krım almanların əlinə keçəndən sonra Bakıya qayıdan Rəsul Rza o vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Mir Cəfər Bağırova məktubla müraciət edərək cəbhədə gördüklərindən – azərbaycanlı döyüşçülərə qarşı amansız rəftar edən zabit və komandirlərin özbaşınalığından, əsgərlərimizi təhqiramiz "yeldaşı" sözüylə ələ salmalarından faktlarla bəhs edir, xüsusilə Moskvanın səlahiyyətli nümayəndəsi Mexlisin azərbaycanlılara nifrət bəsləməsini qeyd edir. Eyni zamanda Krımdan yazıb göndərdiyi oçerk və

məlumatlarda azərbaycanlı döyüşçülərin şücaət və rəşadətindən, igidliklərindən, fədakarlıqlarından yazırdı.

Rəsul Rzanın müharibə şeirlərinin çoxunda Vətən məfhumu məhz Azərbaycan anlayışı kimi qavranılır. "Pilot qardaş" şeirində "Vətənin bir tərəfi buzlu dəniz – bir tərəfi Savalandır" – deyir. Savalan SSRİ-nin yox, İranın tərkibindədir, Cənubi Azərbaycandadır. Bu şeirdə Vətənin sərhədlərinə Azərbaycanın tarixi sərhədləri daxil edilmişdir. Elə bu kitabda yer alan "Azərbaycan döyüşçülərinə" (məhz AZƏRBAYCAN döyüşçülərinə) şeirinə diqqət edin. Şeirdə Murovdağın, Qoşqarın adı çəkilir. Sanki bu şeir 1942-ci ildə Krımda, Tayqüçdə deyil, bizim günlərdə Bakıda yazılmışdır, söz silahı kimi bu gün torpaqlarımızı işğal etmiş qəsbkarlarla savaşda iştirak edir. Fərq ondadır ki, alman faşistlərinin, yəqin ki, Molla Pənah Vaqifin nəğmələrindən xəbərləri yox idi, bir vaxt muğamlarımızdan, nəğmələrimizdən gözləri yaşaran ermənilər isə Vaqifin məqbərəsini dağıdırlar.

> *"Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir".*
>
> **HEYDƏR ƏLİYEV**

Paradoks ondan ibarətdir ki, çar hakimiyyəti Azəri türklərini hərbi xidmətdən uzaqlaşdırsa da, azərbaycanlı generallar Əlağa Şıxlinski "Rus artilleriyasının Allahı", Səməd bəy Mehmandarov Port Artur qəhrəmanı kimi şöhrətlənmişdilər. Ağ hərəkatın generalları Vranqel, Denikin, Kaledin Ukraynanın getmanı Skorobadski, Finlandiyanın prezidenti general Mannerheym müəyyən vaxt ərzində çar ordusunun general-adyutantı Hüseyn xan Naxçıvanskinin komandanlığı altında olmuşlar.

Hüseyn xanın qardaşı oğlu Cəmşid Naxçıvanski Moskvada Frunze adına Hərbi Akademiyada dərs deyərkən onun müdavimləri arasında gələcək Sovet marşalları Qreçko, Konev, Bryuzov, Batitski, Panfilov, Dovator da təhsil alıblar...

İkinci Dünya müharibəsində Azərbaycan xalqının tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov kimi, Ziya Bünyadov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Aslan Vəzirov, Məlik Məhərrəmov və onlarla başqaları kimi igid döyüşçüləri ad çıxarmışlar. Bununla belə, mərkəzi hökumətin yenə də azərbaycanlılara tam inamı yox idi, hərbi xidmətə çağırılanlar, əsasən, tikinti-inşaat batalyonlarında, ya da mətbəxdə çalışırdılar.

Sovet dönəmində Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxaran Heydər Əliyevin müstəqillik dövründə ölkəmizi çox bəlalardan qurtardığı və möhkəm dayaqlar əsasında qurduğu yaxşı məlumdur. Onun xalqımızın qarşısında mühüm xidmətlərindən biri də hələ SSRİ dövründə gənclərimizi ölkənin ali hərbi məktəblərinə göndərməsi, Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratması idi. O vaxt bəzilərinə qəribə gəlirdi, güclü ordusu, yüksək peşəkar hərbi akademiyaları olan SSRİ-nin Azərbaycanda hərbi təhsil ocağına nə ehtiyacı var? Milli zabitlər nəyinə gərəkdir? Nə biləydilər ki, Heydər Əliyev uzaqgörənliklə məhz bu günümüzü düşünürmüş, dərk edirmiş ki, haçansa Azərbaycana öz peşəkar ordusu və zabit-komandan kadrları gərək olacaq. Müstəqil



Azərbaycanın möhkəm peşəkar ordusunun hər hansı təcavüzkara müqavimət göstərə biləcək kadrlarının yetişdirilməsi Qarabağ hadisələrində hamıya aydın oldu.

Bu işi – peşəkar ordunun milli kadrlarla möhkəmləndirilməsi işini uğurla davam etdirən Prezident İlham Əliyev ordumuzun həm də ən müasir silahlarla, ən yeni texnikayla təchiz edilməsi üçün hər cür şərait və imkan yaratdı. Aprel döyüşlərində ordumuzun təcavüzkar üzərində tarixi zəfəri bu strategiyanın təsdiqi oldu.

2016-cı ilin oktyabrında Yazıçılar Birliyinin təşəbbüsü və təşkilatçılığıyla bir qrup qələm sahibi Prezident İlham Əliyevin Baş komandanlığı dövründə təhlükəsizliyi təmin olunmuş Cocuq Mərcanlıya getdik. Heydər Əliyevin Prezident və Ali Baş komandan olduğu vaxt azad edilmiş Horadizə də baş çəkdik. Cocuq Mərcanlıda tikilmiş yeni evlər, yaraşıqlı məktəb binası, Şuşadakı məscidin bir qədər kiçildilmiş memarlıq biçimi qəlbimizi iftixarla doldururdu. Məscid minarələrindən ucalan azan səsi dinimizin də haqq işimizə dəstək verməsinin rəmzi idi. Kənd amansız düşmən hədəfində olanda da buranı tərk etməyən ailə başçısının əlini sıxdıq, mətanəti, kişiliyi üçün təşəkkür etdik ona.

Bu gün Lələtəpə zirvəsində üçrəngli bayrağımız vüqarla dalğalanır və bu bayrağın kölgəsi sanki bütün müvəqqəti işğal olunmuş torpaqlarımızın üstünə düşür. Şuşanın ən uca zirvəsindən tutmuş azad olunmuş bütün torpaqlarımıza qədər bu bayrağın dalğalanacağı günə az qalır.

Ermənilərin Qarabağ avantürası başlanan ilk gündən yazıçılarımız Söz silahıyla mübarizəyə qoşuldular. Heydər Əliyev Moskvada tutduğu yüksək vəzifədən namərdcəsinə uzaqlaşdırılandan 20 gün sonra adı bədnam akademik Aqanbekyan Parisdə Qarabağ münaqişəsinə start verdi. Bu xəbər Bakıya çatan kimi, ilk etiraz səsini qaldıran Yazıçılar Birliyi oldu. Qorbaçova göndərdiyimiz etiraz məktubuna cavab olaraq bizə bildirdilər ki, heç bir sərhəd dəyişikliyindən söhbət gedə bilməz. Amma dəfələrlə təkrar olunan bu riyakar ifadənin arxasında Bakıda Qara Yanvar faciəsi, Xocalı soyqırımı, Dağlıq Qarabağın anşlyusu, ətraf rayonların işğalı durururmuş. Qara yanvar hadisələri haqqında da, Xocalı qətliamı haqqında da Moskva mətbuatı vasitəsilə bütün dünyaya ilk xəbər verən Yazıçılar Birliyi oldu. "Pravda" və "İzvestiya" qəzetlərində qəzəbli müraciətlərimiz çap olundu.

Cəbhə xəttinə, həm də atəşkəs razılığından əvvəl dəfələrlə səfərlər etdik. Ağdamda səhra komandirləri mərhum Allahverdi, «Qatır Məmməd», Fred Asiflə görüşdük. Ağdamda Yazıçılar Birliyinin səyyar Plenumunu keçirdik. Elçin, Əkrəm Əylisli və mən dikuçarla (helikopterlə) mühasirə olunmuş Şuşaya uçduq, orda gecələdik. Bu səfərimizi o vaxt Daxili İşlər nazirinin müavini vəzifəsində işləyən general-mayor Kamil Məmmədov xatırlayır (onun xatirəsi də bu kitaba daxil edilmişdir).

Qarabağ uğrunda döyüşlərdə Azərbaycan yazıçılarından Xəlil Rza Ulutürkün, Sabir Əhmədlinin, Qaçay Köçərlinin, Nəsib Ələkbərovun övladları qəhrəmancasına şəhid oldular. İstedadlı gənc şair Nizami Aydın Qarabağ döyüşlərində həlak oldu. Başqa bir istedadlı gənc şair Alı Mustafa dikuçar qəzasına düşdü. Qara yanvar günlərində qətl edilmiş gənc şair Ülvü Bünyadzadənin misraları bir nəslin manifesti kimi səslənir:

Həyat üçün doğulmuşduq
Vətən üçün ölməliyik.

Xocalı qətliamını törədənlərdən biri – Ermənistanın sabiq prezidenti həyasızcasına bəyan edirdi ki, "Xocalıda azərbaycanlılara göstərdik ki, zarafat etmirik, dinc əhalini qırmaqdan belə çəkinməyəcəyik". Bu yırtıcı məramlarını həyata keçirən sarkisyanlar,

köçəryanlar, zoribalayanlar on iki, yeddi, beş, hətta bir, ikiyaşlı uşaqları qəddarlıqla qanına qəltan edib zövqlə bu zülmə tamaşa edən canilərdir. Amma az-çox ağlı başında olan bir erməni yazarının dediyi kimi: "Türk balalarının başını kəsən erməni balalarının da başını kəsər".

Ən qısa bir zamanda müharibə canilərinin Beynəlxalq məhkəmə qarşısına çıxarılacaqlarına şübhə yoxdur. Gözlərinə siqaretin közünü basdıqları uşaqların, boruya doldurub məhv etdikləri körpələrin ruhları onları hər iki dünyada cəzalandıracaqdır.

İlkin Şükürbəylinin və Nəsimi Faiqoğlunun Xocalı soyqırımının qurbanlarına həsr olunmuş "Qətl edilmiş uşaqlar" kitabının Yazıçılar Birliyinin "Natəvan klubu"nda təqdimatı keçirilərkən çıxışlarda qisas gününün yaxın olduğuna inam ifadə olunurdu. Ancaq biz qisasımızı günahsız körpələrdən almayacayıq. Xalqımızın da, elə öz xalqlarının da başına bəlalar açmış siyasi avantüristlər şeytan əməllərinə görə cavab verməli olacaqlar.

Dediyim kimi, Qarabağ münaqişəsi başlanandan yazıçılarımız dəfələrlə döyüş bölgələrində əsgərlərimizlə görüşmüşlər. Müdafiə Nazirliyində hörmətli nazir general-polkovnik Zakir Həsənovla yazıçılarımızın son dərəcə önəmli görüşündən, nazirin verdiyi məlumatlardan sonra orduyla ədəbi əlaqələrimiz daha da möhkəmləndi. Yenə də döyüş bölgələrinə, o cümlədən igid Mübarizin xidmət etdiyi hərbi hissəyə ziyarətimiz, onun cəbhə dostlarıyla görüşlərimiz hamımıza dərin təsir bağışladı.

Yazıçılar Birliyinin əvvəllər mərhum Zəlimxan Yaqubun, indi isə Şahin Musaoğlunun rəhbərlik etdiyi hərbi vətənpərvərlik seksiyası nazirliyin əməkdaşları ilə birlikdə iş planı tərtib edir, bu plan əsasında müxtəlif hərbi hissələrdə görüşlər keçirilir, oralara kitablar göndərilir...

Yazıçılarımızın məxsusi bu nəşr üçün müsahibələri və yazdıqları mətnlərin daxil olduğu kitab da orduyla sıx əlaqələrimizin daha bir örnəyidir.

Yazıçılarımız daima Dövlətimizin, Prezidentimizin, Ali Baş Komandanın, Ordumuzun yanındadırlar.

Böyük Zəfər günümüzə qədər söz silahımızı yerə qoymayacayıq.

*18 noyabr 2018*





